ERİX MARİYA REMARK

# ÜÇ YOLDAŞ

Tərcüməçi:
Əyyub Qiyas

qanun nəşriyyatı

ERICH MARIA REMARQUE

# DREI KAMERADEN

Hadisələr Birinci Dünya müharibəsindən sonrakı Almaniyada, sosial və iqtisadi böhran dövründə cərəyan edir. Müharibədən sağ çıxmış üç dost – Robert Lokamp, Otto Kester və Qottfrid Lens öz keçmişlərinin ağrısından, gələcəyə olan ümidsizlikdən qurtulmaq və həyatın mənasını yenidən tapmaq uğrunda mübarizə yaşayır.

Onlar köhnə avtomobil təmiri sexində işləyir, kiçik sevinclər və dostluq sayəsində çətinliklərə sinə gərirlər. Lakin Robertin Patrisiya Holman adlı zərif və xəstə qıza aşiq olması dostların həyatını dəyişdirir...

Böyük alman yazıçısı Erix Mariya Remarkın ötən əsrin 30-cu illərində qələmə aldığı "Üç yoldaş" romanı müəllifin ən duyğulu əsərlərindəndir. Romandakı sevgi və dostluq hekayəsi oxucunu həm ağladır, həm düşündürür, həm də insan ruhunun müharibədən sonra da yaşamaq üçün necə dirəndiyini göstərir....

# I HİSSƏ

## I

Səma bürünc kimi sarı rəngə çalırdı – ətrafdan qalxan tüstü hələ ki səmanın rənginə qarışmamışdı. Fabrikin damları həmişəkindən daha çox işıldayırdı. İndilərdə günəş də çıxasıydı. Saatıma baxdım – hələ səkkizə çox qalırdı. Bu gün işə on beş dəqiqə tez gəlmişdim.

Darvazanı açandan sonra keçib benzin kolonkasının nasosunu işlək vəziyyətə gətirdim. Həmişə bu vaxtlarda maşınlar bir-bir yanacaq doldurmağa gələrdi.

Arxa tərəfdən eşidilən tükürpərdici səs diqqətimi çəkdi – sanki kimsə yerin altında çoxdan bəri pas tutmuş bir yivi açmağa çalışırdı. Sakitcə dayanıb diqqətlə səsə qulaq asdım. Sonra tələsmədən həyəti keçərək emalatxanaya getdim, qapını astaca aralayıb içəri baxdım. Alaqaranlıq otaqda ayaqları bir-birinə dolaşan kabus gəzirdi. Onun başında çirkli ağ yaylıq, əynində mavi önlük, ayağında hündür, yumşaq ayaqqabı var idi, əlindəki süpürgəylə sanki su üzərində avar çəkirmiş kimi qəribə hərəkətlər edirdi. Çəkisi doxsan kilodan az olmayan bu kabus bizim süpürgəçi Matilda Ştoss idi.

Sakitcə dayanıb bir qədər onun hərəkətlərinə göz qoydum. Begemot gövdəsiylə maşın radiatorlarının arasında irəli-geri hərəkət edir, dodağının altında isə sadiq əsgər haqqında köhnə bir mahnı-

nın sözlərini mızıldayırdı. Masanın yanındakı pəncərənin önündə iki konyak şüşəsi var idi. Onlardan biri, demək olar ki, tamamilə boşalmışdı. Dünən axşamsa şüşələr doluydu.

– Bir dəqiqə, frau Ştoss... – deyib onu səslədim.

Mahnı kəsildi, süpürgə yerə düşdü. Xoşbəxt təbəssümdən əsər-əlamət belə qalmadı. İndi də, yəqin ki, mən onun gözlərində kabusa oxşayırdım.

Dili dolaşaraq:

– Allah, sən saxla, – deyə Matilda kəkələyə-kəkələyə donquldandı və qızarmış gözlərini diqqətlə mənə dikdi: – Sizi belə ertədən gözləmirdim, – səsi yenə xırıldadı.

– Deyəsən, düz tapmışam axı... Necədir? Bəyəndiniz?

– Bəyəndim bəyənməyinə, ancaq məni utandırmayın da... – O, boğazını arıtladı. – Deyəsən, mən ağlımı itirmişəm axı...

– Siz də çox şişirtməyin. Bir balaca sərxoşsuz, vəssalam.

O, müvazinətini çətinliklə də olsa saxlamağa çalışırdı. Dodağı səyriyir, göz qapaqları qoca bayquş kimi atırdı.

O, yavaş-yavaş özünə gəlməyə başlamışdı. Addımını inamla irəli atıb:

– Cənab Lokamp, – dedi, – axı biz də adamıq... Nəfs! Mən əvvəl, sadəcə, iylədim, sonra bircə qurtum içib dadına baxdım, mədəm də xəstədir axı... Hə də... Belə çıxır ki, şeytan yoldan çıxardıb məni. Qoca arvadın nəfsiylə oynamaq düz deyil, dolu şüşələri ora qoymaq olmaz.

Birinci dəfə deyildi ki, mən onu bu vəziyyətdə görürdüm. O, hər səhər hamıdan bir-iki saat tez gəlirdi ki, emalatxananı yığışdırsın. Emalatxanada nə qədər istəsən pul unutmaq olardı, o pula gözünün ucuyla da baxmazdı, amma içki... O, içki görəndə elə bil siçovul ət görürdü.

Mən şüşəni götürüb baxdım:

– Yaxşı ki, müştərilərə təklif etdiyimiz konyaka dəyməmisiniz, cənab Kesterin özü üçün saxladığından içmisiniz.

Matildanın qırışmış sifətində təbəssüm göründü:

– Nəyi də bilməsəm, yaxşını pisdən ayırmağı bacarıram, cənab Lokamp. Amma, yəqin ki, siz də məni, bu biçarə dul arvadı ələ verməzsiniz də...

Başımı yelləyərək:

– Bu gün yox, – dedim.

O toxtayıb tumanının çırmalanmış ətəyini aşağı saldı.

– Mən də gedim yuyunum. Yoxsa cənab Kester məni bu görkəmdə görsə, yenə başlayacaq...

Mən astaca dolaba yaxınlaşıb qapını açdım:

– Matilda!

O, özünü tələsik mənə çatdırdı. Mən əlimdəki qəhvəyi rəngli dördkünc şüşəni başımın üstünə qaldırdım.

O, əllərini nümayişkarcasına yelləyib:

– Mənlik deyil, – dedi. – And içirəm ki, mənlik deyil. Mən ona toxunmamışam!

– Bilirəm, bilirəm... – Onu sakitləşdirməyə çalışaraq qədəhi ağzına qədər doldurdum. – Bilirsən bu nədir?

– Gəl bir bilməyim... – O, acgözlüklə dodaqlarını yaladı. – Romdu! Yamaykadan gətirilən tünd, çoxdandan qalma içkidir.

– Düz tapdın. Ona görə də bir qədəh içə bilərsən.

– Mən? – O, geriyə dartındı. – Cənab Lokamp, bu lap ağ oldu ki... Siz məni utandırırsınız. Qoca Ştossun xəlvətcə sizin konyakınızın dalına keçməyi azmış kimi, mükafat olaraq hələ bir roma da qonaq eləyirsiniz. Siz – sadəcə, çox müqəddəs adamsız. Aman Allah... Bunu içməkdənsə, ölmək yaxşıdır.

– Nə deyirəm ki? – Mən özümü elə göstərdim ki, guya qədəhi yerinə qaytarmaq istəyirəm.

– Əgər siz belə istəyirsizsə. – O, cəld əlimdəki qədəhi aldı. – Veriləni qaytarmazlar. Səbəbini bilmək o qədər də vacib deyil... Sizin sağlığınıza! – Birdən nəsə fikirləşib duruxdu. – Bəlkə ad gününüzdür?

– Düz tapmısan, Matilda!

– Doğrudan? Yalan demirsən ki? – O, mənim əlimdən yapışıb var gücüylə silkələdi. – Ürəkdən təbrik edirəm! Bir də çoxlu pul arzulayıram, cənab Lokamp, çoxlu pul.

O, qədəhi başına çəkib ağzını sildi.

– Elə narahat oldum ki, dedim, yəqin, nəyisə gözdən qaçırmışam. Mən ki səni doğma oğlum kimi istəyirəm.

– Lap yaxşı... Mən də şad oldum.

Ona bir qədəh də rom süzdüm. Qədəhi birnəfəsə başına çəkib xoşbəxt baxışlarla emalatxananı tərk etdi.

* * *

Şüşələri yığışdırıb masanın arxasına keçdim. Pəncərədən içəri sıyrılan günəşin solğun şəfəqləri əllərimə işıq salırdı. Nə qədər əhəmiyyət verməsən belə, ad gününün də öz qəribəliyi var. Otuz yaş... Bir vaxtlar ağlıma da sığışdıra bilməzdim ki, nə vaxtsa iyirmi yaşım olacaq. Tez böyüməyi elə çox arzulayırdım ki... Sonra isə...

Mən siyirmədən ağ kağız götürüb ötən günləri yada salmağa çalışdım. Uşaqlığım... Məktəb illərim... Bütün bunlar indi çox əlçatmaz idi. Mənimçün əsl həyat 1916-cı ildən sonra başlayırdı. O vaxt əsgərliyə təzəcə getmişdim. Arıq, uzun, on səkkiz yaşı təzə tamam olmuş təcrübəsiz bir əsgər kimi kazarmanın arxasındakı şumluqda lopabığlı unter-zabitin komandalarını səndirləyə-səndirləyə yerinə yetirirdim. Xidmətimin ilk günlərinin birində anam mənə baş çəkməyə gəlmişdi. Bir saatdan artıq gözləməli olmuşdu məni. Əsgər çantamı düz yığmadığım

üçün cəzalandırılmışdım və boş vaxtım olan kimi cəza olaraq ayaqyolunu təmizləməliydim. Anam mənə kömək etmək istəsə də, imkan verməmişdilər. O ağlamışdı... Mənsə elə yorulmuşdum ki, onunla söhbət edəndə oturduğum yerdəcə yuxulayırdım.

1917-ci il. Flandriya. Midendorfla birlikdə bir şüşə qırmızı şərab almışdıq. Kef eləməyə hazırlaşırdıq. Alınmadı ki... Sübh tezdən ingilislər şiddətli atəş açmağa başladılar. Günortaya yaxın Kester yaralandı. Axşamüstü isə Mayerlə Peter həlak oldular. Gecə düşəndən sonra elə təzəcə dincəlməyə hazırlaşıb şüşəni açmaq istəyirdik ki, bu dəfə də qaz hücumu başladı. Boğucu duman səngərlərə doldu. Yaxşı ki, əleyhqazları vaxtında geyinmişdik. Bədbəxtlikdən, Midendorfun maskası cırılmışdı. O, bunu hiss edəndə çox gec idi. Təzəsini tapıb başına keçirənə qədər artıq zəhərlənmişdi. Gözümüzün qabağındaca qan qusurdu. O, ertəsi gün səhər tezdən keçindi, sifəti qaralmışdı. Boğazı isə cırmaq-cırmaq idi. Elə bil ki, nəfəs almaq üçün dırnaqlarıyla boğazını didmişdi.

1918-ci il. Bu hadisə hospitalda olmuşdu. İki gün əvvəl təzə yaralıları gətirmişdilər. Çoxunun vəziyyəti ağır idi. Hər yerləri tənziflə sarılmışdı. İniltilər, əzab çəkən simalar... Bütün günü xəstələri cərrahiyyə otağına daşıyan arabalar o tərəf-bu tərəfə gedib gəlirdi. Bəzən o arabalar boş qayıdırdı. Mənimlə yanaşı çarpayıda İozef Ştol uzanmışdı. Onun ayağını kəssələr də, bundan xəbəri yox idi. Ayağının kəsilən yerinin üstünə ipdən asılı adyal atmışdılar, o, heç nə görə bilmirdi. Ağlına da gətirə bilməzdi ki, ayağı daha yoxdur və bir vaxtlar onu sevdiyi şeylərin arxasınca aparan, onu bu müharibəyə qədər çəkib gətirən ayaqların üstündə bir daha dura bilməyəcək. O, hələ də ayaqlarındakı ağrını hiss edirdi. Həmin gecə bizim palatadakı iki yaralı da keçindi. Onlardan biri uzun müddət ağrılar içində əzab çəkərək öldü.

1919. Yenə evimizdəyəm. İnqilab. Aclıq. Gün uzunu küçələrdən pulemyotların şaqqıltısı eşidilir. Əsgərlərlə əsgərlər vuruşur. Yoldaş yoldaşa qarşı.

1920. Qiyam. Karl Bregeri güllələdilər. Kesterlə Lensi isə həbs elədilər. Anam xəstəxanadadır. Xərçəngin ən ağır formasından əziyyət çəkir.

1921. Hər şeyi unutmuşam. Bu il bütövlükdə mənim xatirəmdən silinib. Nə qədər istəsəm də, bir şey xatırlaya bilmirəm.

1922-ci ildə isə Tyürinq yolunun çəkilişində çalışırdım.

1923-cü ildə fabrikdə rezin məmulatlarının reklam işlərinə rəhbərlik edirdim. İnflyasiyanın sürətlə artan vaxtıydı. Ayda iki yüz milyard marka qazanırdım. Pulu gün ərzində iki dəfə verirdilər. Hər dəfə də arada yarım saatlıq fasilə yaradırdılar ki, dolların kursu yenidən qalxana qədər yüyürüb dükandan bir şey ala biləsən. Günün axırına qədər əldə qalan pullar onsuz da qəpik-quruşa çevrilirdi.

Bəs sonra nələr baş verdi? Sonrakı illərdə nələr oldu? Mən qələmi yerə qoydum. Sonrakı hadisələri xatırlamaq istəmədim. Çox şeyi onsuz da unutmuşdum. Hər şey qarmaqarışıq idi. Axırıncı dəfə ad günümü "İnternasional" kafesində qeyd eləmişdim. Bir il orada piano çalıb rəqsləri müşayiət eləmişdim. Sonra yenidən Kester və Lenslə tapışdıq. Budur, mən indi buradayam – Kesterin və Kyunun "Avrema" avtotəmir emalatxanasında. "Kyu" sözü Lenslə mənim adıma işarə idi. Amma emalatxananın tam sahibi Kester özüydü. O, bizim məktəbdə oxumuşdu, müharibədə isə bizim tağımın komandiri oldu. Daha sonra bir müddət təyyarəçilik elədi, bir müddət tələbə də oldu, sonra yürüş maşınlarında işlədi və axırda da bu köşkü aldı. İlk əvvəl ona əvvəllər bir müddət Latın Amerikasında veyllənən Lens qoşuldu, sonra da mən gəldim.

Mən cibimdən siqaret çıxartdım. Əslinə qalsa, mənim öz halımdan narazılıq etməyə haqqım yox idi. Pis yaşamırdım, işim var